**“Təsdiq edirəm”**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru**

**____________________ t.e.d., prof.C.M.Cəfərov**

**“___” _______ 2022-ci il**

**Publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin “Ümumi tarix və tarixin tədrisi texnologiyası” kafedrası haqqında**
**ƏSASNAMƏ**

1. “Ümumi tarix və tarixin tədrisi texnologiyası” kafedrası ADPU-nun elmi-tədris vahidlərindən biri olub onunla əlaqəli fənlər üzrə tədris, elmi-tədqiqat, metodiki və elmi-pedaqoji işləri həyata keçirir:

1.1. Kafedra Azərbaycan Respublikası Qanunvericiliyə, Təhsil Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, təlimat və hüquqi göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, “Ali təhsil müəssisəlıərinin “Nümunəvi Nizamnaməsinə”, ADPU-nun Nizamnaməsinə, ali təhsil müəssisələrinin professor-müəllim heyətinin vəzifəyə seçilməsi və attestasiya qaydalarına uyğun olaraq yaradılmışdır.

1.2. Kafedraya ümumi rəhbərlik, bir qayda olaraq elmi dərəcəsi və elmi rütbəsi olan kafedra müdiri tərəfindən həyata keçirilir. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə müavinləri ola bilər. Kafedra müdirinin müavinləri kafedra müdirinin təqdimatı ilə rektor tərəfindən təyin edilir.

1.3. Kafedranın kollektiv idarəetmə orqanı onun ayda bir dəfədən gec olmayaraq çağırılan ümumi yığıncağıdır.

1.4. Kafedra üzvlərinin sırasına - kafedra müdiri, professorlar, dosentlər, baş müəllim, elmi işçilər, doktorlar və digər kateqoriyalardan olan işçilər daxildirlər.

2. *Kafedranın əsas vəzifələri aşağıdakılardır:*

2.1. bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş məşğələrin, praktiki seminar və digər dərslərin yüksək elmi-nəzəri səviyyədə aparılmasını təmin etmək;

2.2. pedaqoji, elmi-pedaqoji, elmi-tədqiqat, istehsalat və digər təcrübələrə,bakalavrların sərbəst, kurs, buraxılış işlərinə və magistrların dissertasiyalarına rəhbərlik etmək;

2.3. cari imtahanların və aralıq yoxlamaların keçirilməsini təmin etmək;

2.4. kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanmasını, müvafiq qaydada təsdiq edilmək üçün təqdim olunmasını təşkil etmək, digər kafrdraların hazırladığı tədris proqramlarına rəy vermək;

2.5. dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik, təlimat, göstəriş, əyani vəsait və tələbələrin elmi-nəzəri konfranlara hazırlanmasını təmin etmək, dərslik, dərs vəsaiti və tədris-metodiki ədəbiyyatlara rəy vermək;

2.6. elmi-tədqiqat işlərinin aparılmasını təşkil etmək, doktorantların və tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik etmək;

2.7. tamamlanmış elmi-tədqiqat işlərinin müzakirəsini təşkil etmək, onların istehsala tətbiq edilməsi və ya nəşr edilməsi üçün rəy vermək;

2.8. kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin fərdi planlarının tərtib olunmasını və onların icrasını təmin etmək;

2.9. universitetin, respublikanın və xarici ölkələrinin ali məktəblərinin pedaqoqlarının qabaqcıl iş təcrübəsinin öyrənilməsini və yayılmasını təşkil etmək;

2.10. tədris prosesində müasir texniki vasitələrdən; İKT-dan istifadə edilməsinə nail olmaq;

2.11. elmi-pedaqoji kadrların hazırlanması üçün tələbələrlə və doktorantlarla işi təşkil etmək;

2.12. kafedra əməkdaşlarının dissertasiyalarının yüksək səviyyədə hazırlanmasına kömək etmək, həmçinin rektorluğun tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarını müzakirə edib rəy vermək;

- Kafedra ADPU-nun Elmi Şurasını qərarı ilə ən azı 5 professor-müəllim (o cümlədən 3 nəfər elmi dərəcəyə malik) olduqda yaradıla bilər.
- Kafedranın iclaslarına ADPU-nun əməkdaşları, Himayəçilər şurasının üzvləri, digər ali məktəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilər.
-

*3. Kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə olunur:*

3.1. kafedra müdirliyinə seçimlə əlaqədar namizədlərin müzakirəsi;

3.2. kafedranın bütün fəaliyyət növləri üzrə gördüyü işlər, professor-müəllim heyətinin, doktorantların, magistr təhsili alan, staj keçən və ya fərdi planla təhsil alan tələbələrin tədris tədqiqat işləri və hesabatları;
3.3. kafedrada tədris olunan kurslar üzrə tədris vəsaitləri, proqramları, mühazirə və imtahan materialları;
3.4. müəllimlərin tədris yükünün bölünməsi və tədris yükünün yerinə yetirilməsi vəziyyəti;
3.5. kafedra tərəfindən təşkil olunan seminarların, konfransların, sərgilərin və s. tədbirlərin tematikası, onların keçirilməsinin nəticələri;
3.6. elmi və metodiki işlərin nəşr olunmasına dair təqdimatların verilməsi;
3.7. sərbəst işlərin hazırlanması, təhvil verilməsi və qiymətləndirilməsi qaydalarının müəyyən edilməsi;

*4. Kafedra iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyə və ya təqdimatlar verilə bilər:*

4.1. öz səlahiyyətləri daxilində kafedra müəllimlərini xarici ölkələrə, stajkeçmə və ixtisasartırma kurslarına, yaradıcılıq və tədqiqat ezamiyyətinə göndərmək üçün, eləcə də doktoranturaya qəbulla bağlı təqdimat vermək;
4.2. müəllim və elmi işçilərin kafedraya işə qəbulu haqqında işəgötürmə komissiyasına tövsiyə, onlarla müqavilə bağlanması, mövcud qanunvericiliyə uyğun olaraq onlara vəzifə maaşı və əlavələrin təyin edilməsi haqqında müraciət hazırlamaq;
4.3. magistraturaya, doktoranturaya qəbul və iddiaçıların kafedraya təhkim olunması ilə bağlı təkliflər vermək;
4.4. tələbələrin fərdi planlarına uyğun təhsilə keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;
4.5. əməkdaşların həvəsləndirilməsi və ya cəzalandırılması ilə bağlı əsaslandırılmış təqdimat vermək;
4.6. kafedranın müəllimlərinin və digər əməkdaşlarının vəzifədən kənarlaşdırılması haqda təqdimat vermək;
4.7. Kafedra iclaslarında qərarlar açıq və gizli səsvermə yolu ilə, sadə səs çoxluğu ilə qəbul edilir.

*5. Kafedra müdiri:*

5.1. kafedranın fəaliyyətinə rəhbərlik edir, onun işini planlaşdırır və təşkil edir;
5.2. kafedra iclaslarını çağırır, onlara sədrlik edir;
5.3. Elmi Şura qarşısında kafedranın fəaliyyəti barədə hasabat verir;

5.4. kafedranı təmsil edir;
5.5. kafedra müdirinin müavinləri vəzifələrinə namizədləri təklif edir;
5.6. kafedranın fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşıyır;

- Kafedrada kargüzarlıq mövcud qanunvericiliyə və ADPU-nun qəbul edilmiş qaydalara uyğun olaraq aparılır.
- Əsasnaməyə əlavələr və dəyişikliklər, onun qəbul olduğu qaydada həyata keçirilir.

Əsasnamə kafedranın “28” oktyabr 2022-ci il tarixli (pr.№2) iclasında qəbul edilmişdir.

**Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının müdiri:** **dos.S.Əliyeva**

Bu əsasnamə Fakültə Elmi Şurasının “___” _________ 2022-ci il tarixli (pr.№__) iclasında qəbul edilmişdir.

**Tarix və coğrafiya fakültəsinin dekanı:** **dos.A.Axundov**

Azərbacyan Dövlət Pedaqoji Universiteti Tədris-Metodiki Şurasının “__”_________ 2022-ci il tarixli (pr.№___) iclasında müzakirə edilərək bəyənilmiş, təsdiq edilməsi üçün Elmi Şuraya tövsiyə olunmuşdur.

**Tədris-Metodiki Şurasının sədri:** **dos.E.Aslanov**